AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 18/2

Bakı şəhəri 09 dekabr 2015-ci il

AMEA-nın yeni strukturu haqqında

Azərbaycan Respublikasının Nazirlər Kabineti 17 noyabr 2015-ci il tarixli, 363 №-li Qərarla Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturunu təsdiq etmişdir. Qərarın icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2015-ci il tarixli, 363 №-li Qərarı ilə təsdiq edilmiş AMEA-nın yeni strukturu nəzərə alınsın.
2. AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsinə (hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev) tapşırılsın ki, AMEA-nın yeni strukturunun tətbiqindən irəli gələn məsələləri həll etsin.
3. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, AMEA-nın yeni strukturunun tətbiqi ilə əlaqədar maliyyə məsələlərini həll etsin.
4. AMEA-nın İşlər idarəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayevə tapşırılsın ki, AMEA-nın strukturunda yeni yaradılmış qurumların yerləşdirilməsi və maddi-texniki bazasının formalaşdırılması ilə bağlı təkliflər hazırlayıb AMEA Rəyasət Heyətinə təqdim etsin.
5. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT